# “Azərbaycan Respublikasının fövqəladə hallar atlası”nın nəşri haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Yer kürəsində vaxtaşırı olaraq təbii fəlakətlərin baş verməsi, həmçinin insan fəaliyyətinin artması təbii və texnogen xarakterli fövqəladə halların intensivləşməsi ilə nəticələnir.

Son iyirmi ildə Azərbaycanda aparılan geniş quruculuq işləri sayəsində irimiqyaslı dövlət və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilir. Bununla bağlı əhalinin və infrastruktur obyektlərinin mühafizəsini və fövqəladə halların qabaqlanması üçün profilaktik tədbirlərin planlaşdırılmasını həyata keçirən, bu sahədə müvafiq qərarlar qəbul edən dövlət orqanlarından vahid elmi-praktik yanaşma tələb olunur. Eyni zamanda, ölkə ərazisində baş vermiş və yarana biləcək təbii dağıdıcı hadisələrin elmi cəhətdən sistemli şəkildə öyrənilməsi, onların törədə biləcəyi ziyan və risklərin kompleks qiymətləndirilməsi ön plana çəkilir.

Bu baxımdan “Azərbaycan Respublikasının fövqəladə hallar atlası”nın nəşri böyük sosial-iqtisadi əhəmiyyətə malikdir. Atlasın nəşr edilməsində məqsəd təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, digər infrastruktur obyektlərinin, o cümlədən strateji neft-qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının fövqəladə hallar atlası” nəşr edilsin.

2. “Azərbaycan Respublikasının fövqəladə hallar atlası”nın redaksiya heyətinin aşağıdakı tərkibi təsdiq edilsin:

**Redaksiya heyətinin sədri**

| | | |
|---|---|---|
| Abid Şərifov | - | Azərbaycan Respublikası Baş nazirinin müavini |

**Redaksiya heyəti sədrinin müavinləri:**

| | | |
|---|---|---|
| Kəmaləddin Heydərov | - | Azərbaycan Respublikasının fövqəladə hallar naziri |
| Akif Əlizadə | - | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |

**Məsul katib**

| | | |
|---|---|---|
| Ramiz Məmmədov | - | Azərbaycan Milli Elmlər Akademiyasının akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru |

**Redaksiya heyətinin üzvləri:**

| | | |
|---|---|---|
| Şahin Mustafayev | - | Azərbaycan Respublikasının iqtisadiyyat naziri |
| Natiq Əliyev | - | Azərbaycan Respublikasının energetika naziri |
| Oqtay Şirəliyev | - | Azərbaycan Respublikasının səhiyyə naziri |
| Ramin Quluzadə | - | Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri |
| Ziya Məmmədov | - | Azərbaycan Respublikasının nəqliyyat naziri |
| Heydər Əsədov | - | Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri |
| Hüseynqulu Bağırov | - | Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| Əbülfəs Qarayev | - | Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri |
| Mikayıl Cabbarov | - | Azərbaycan Respublikasının təhsil naziri |
| Kərəm Həsənov | - | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri |
| Tahir Budaqov | - | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri |
| Faiq Tağı-zadə | - | Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin müavini |
| Rövnəq Abdullayev | - | Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti |
| İlyas Əlizadə | - | Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Ekologiya şöbəsinin müdiri |
| İbrahim Quliyev | - | Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| Qurban Yetirmişli | - | Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru |
| Ulduz Həşimova | - | Azərbaycan Milli Elmlər Akademiyasının akademik A.Qarayev adına Fiziologiya İnstitutunun direktoru |
| İlham Ələkbərov | - | Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun direktoru |
| Validə Əlizadə | - | Azərbaycan Milli Elmlər Akademiyasının Botanika İnstitutunun direktoru |
| Elmira Ramazanova | - | Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutunun direktoru |

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2016-cı il*